# HEYDƏR ƏLIYEV DÜHASI

***Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 ilik yubileyinə həsr olunur***

Müstəqil Azərbaycan Respublikasının müasir dövlət quruluşu modelinin banisi, yaradıcısı, qurucusu və ona əbədi həyat bəxş edən Ümummilli Liderimiz Heydər Əliyevdir. Ulu Öndərimizin həyat salnaməsini diqqətlə araşdırdıqda əmin olursan ki, Heydər Əliyev bütün ömrü boyu doğma Azərbaycan xalqının taleyi ilə yaşayıb, bütün şüurlu həyatını canı ilə, qanı ilə sevdiyi doğma millətinin tərəqqisinə həsr edib. Ümummilli Liderimiz Heydər Əliyevin: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət olmuşdur" söylədiyi tarixi kəlamları onun həyat tərzi təsdiqləyir.

Ermənilər 1988-ci ilin sonundakı murdar təmizləmə məqsədlərinə çatmaq üçün birinci növbədə Heydər Əliyev dühasından başladılar. Təbii ki, M.Qorbaçovun təşəbbüsü ilə Ümummilli Liderimiz Sov. İKP- nin Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməyə vadar edilir. Sonra isə Heydər Əliyev Moskvada bir növ ev dustağı şəraitində yaşamalı olur. Yalnız bundan sonra Azərbaycan Respublikasında bütün siyasi proseslər ölkənin çökməsi və parçalanması istiqamətində cərəyan etməyə başlayır. Sovet (rus) qoşunlarının Bakıda və ətraf bölgələrdə törətdikləri 1990-cı il 20 Yanvar faciəsi Heydər Əliyevi, hər şeydən əvvəl, bir azərbaycanlı kimi, rahat buraxa bilməzdi. Ulu Öndərimiz Moskvada bütün qadağalara baxmayaraq beynəlxalq müşahidəçilərin iştirakı ilə Azərbaycan nümayəndəliyində mətbuat konfransı keçirib 20 Yanvar faciəsini bütün dünyaya bəyan etdi. Moskva da öz növbəsində Heydər Əliyevin Azərbaycana qayıtmasına əngəllər törədir, sapı özümüzdən olan rəhbərlərin əli ilə hər cür təzyiqlər göstərirdi. Bütün bu əngəllərə, təzyiqlərə, hədə - qorxulara baxmayaraq Ulu Öndərimiz qan içində inildəyən doğma Azərbaycana qayıtmaq, xalqın azadlıq mübarizəsində onunla çiyin-çiyinə olmağa can atırdı. Nəhayət buna da nail oldu - 1990-cı ildə Heydər Əliyev Bakıya gəldi və elə Binə hava limanından da doğma Naxçıvana yollandı. 1990-cı ilin məşəqqətli yanvar günlərini Ulu Öndərimiz 1995-ci il sentyabrın 12-də respublika ziyalılarının bir qrupu ilə görüşdə ürək ağrısı ilə xatırlayaraq demişdir: "Faktiki olaraq 1990-cı 21 Yanvarında mən Kommunist Partiyasını mənən tərk etdim və açıq mübarizəyə başladım. Bu mübarizə şəxsən özümə yeni bir vəzifə almaq üçün deyildi. Sadəcə, görürdüm ki, xalq ağır vəziyyətdədir, respublikanın rəhbərləri xalqa xəyanət edirlər, xalqın ziyalı, dəyərli adamları ayağa qalxıblar, ancaq onları boğurlar. Hesab etdim ki, burada mənim səsim onların səsinə güc verə bilər. Beləliklə də, biz bu ağır vəziyyətdə xalqımızı, onun milli mənliyini, mənəviyyatını qoruya bilərik.."

Heydər Əliyev özü ilə böyük dövlətçilik təcrübəsi gətirmişdi, mübarizlik, əqidə prinsipi, müstəqillik ideyalarının həyata keçirilməsi kimi mənəvi dəyərlərin daşıyıcısı qismində doğma Naxçıvana təşrif buyurmuşdu. Azərbaycanda isə müstəqillik uğrunda mübarizə özünün kəskin həddi istiqamətində sürətlənirdi. Respublikada iki qüvvə üz-üzə gəlmişdi: səngərin bir tərəfində respublika rəhbərliyindəki vəzifəpərəst qüvvələr, digər tərəfində azadlıq mübarizəsi ilə alovlanmış xalq kütləri dayanmışdı. Respublikada yaranmış xaosdan isə düşmənlərimiz, xüsusən də erməni işğalçıları daha çox yararlanmağa çalışırdılar. M.Qorbaçovun ermənipərəst siyasətindən ustalıqla istifadə edərək (bu tarixən belə olub) ermənilər Dağlıq Qarabağda mənfur Volskinin rəhbərliyi ilə Xüsusi Komitə yaradılmasına nail oldular. Komitənin respublika tabeçiliyindən çıxarılıb birbaşa Moskvaya tabe olması nəticəsində Dağlıq Qarabağı Azərbaycanın sinəsindən qoparmaq prosesinin əsası qoyuldu. Bütün bu siyasi prosesləri, Moskvanın işğalçılıq oyunlarını Heydər Əliyev sakitcə müşahidə edə bilməzdi. Naxçıvan Sovet Sosialist Muxtar Respublikası Ali Sovetinin sədri seçildikdən sonra Azərbaycanın Müstəqillik Aktının qəbul edilməsi mübarizəsində siyasi fəaliyyətini son dərəcə gücləndirirdi.

Ulu Öndərimiz 1990-cı il noyabrın 17-də Naxçıvanın adındakı "Sovet Sosialist" sözlərinin çıxarılmasına və Muxtar Respublikanın Ali Soveti əvəzinə Ali Məclis adı ilə dəyişdirilməsinə, Azərbaycanın 1918- ci il mayın 28-də elan olunmuş ADR-in qəbul etdiyi üçrəngli bayrağın bərpa edilməsinə nail oldu. Gəlin həmin dövrdə Naxçıvanda və Azərbaycanda cərəyan edən siyasi prosesləri bir daha yada salaq. Naxçıvan Muxtar Respublikası faktiki olaraq Azərbaycandan tamam ayrı düşmüşdü. Naxçıvanla ancaq hava və rabitə ilə əlaqə saxlamaq mümkün idi. Belə bir kritik dövrdə Ulu Öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasına rəhbərlik edirdi. Deməli, Naxçıvan Muxtar Respublikası nümunəsində Heydər Əliyev Azərbaycanın müstəqil dövlət quruculuğunun əsasını yaradırdı. Heydər Əliyev həm dahi siyasi xadim kimi, həm də bir tarixçi kimi bilirdi ki, Azərbaycanda tarixən monarxiya tipli dövlətlər olub, amma həmin dövlətlər Azərbaycanın bütöv dövlət quruculuğu əsa-sında formalaşmadığına görə onların fəaliyyəti uzunmüddətli olmayıb: ya əldən-ələ keçib, ya da yadelli işğala məruz qalıb. Çox güman ki, Ulu Öndərimiz 1917-1921-ci illərdə bütün Cənubi Qafqazda meydan oxuyan erməni daşnak hökuməti ilə təkbaşına müharibə aparan, Naxçıvan-İrəvan bölgəsində yaradılan ilk milli türk-müsəlman "hökuməti" olan Abbasqulu bəy Şadlinskinin başçılığı ilə fəaliyyət göstərən Vedibasar Komitəsinin tarixi xidmətlərindən hali idi. Yenə də tarix təkrar olunmuşdu - rusun sovet maskasında Azərbaycan torpaqlarında erməniləşdirmə siyasəti həyata keçirilirdi. Heydər Əliyev Azərbaycan xalqının gücünü, mənliyini, qeyrətini göstərmək üçün mübarizə meydanına atılmışdı. Çünki Ulu Öndərimiz öz xalqının gücünü, əqidəsini, mərdliyini, mübarizəsini, əzmkarlığını yaxşı bilirdi və xalqın bu keyfiyyətlərinə arxalanırdı.

Tarixin acı məğlubiyyətlərinin səbəblərini yaxşı bilən Heydər Əliyev bütöv Azərbaycan dövlətçiliyinin əsasını yaratmağı qarşısına məqsəd qoymuşdu. Ulu Öndər şəxsi nümunəsi ilə Muxtar Respublikanı müstəqil idarə edirdi: ucqar dağ kəndində işıq yoxdursa, Heydər Əliyevin kabinetində də, yaşadığı mənzildə də işıq olmurdu. Naxçıvan əhalisi soyuqdan əziyyət çəkirdisə, Heydər Əliyev də soyuq kabinetdə işləməli olurdu, soyuq mənzildə istirahət edirdi. Yəni, Muxtar Respublikanın bütün problemləri Heydər Əliyevin həyatında da öz əksini tapırdı. Heydər Əliyev daha Moskvadan və yaxud Bakıdan nə kömək gözləyirdi, nə də ki, umu-küsü edirdi. Naxçıvan əhalisi ilə gecə-gündüz dövrün çətin problemlərinin həlli üçün birlikdə çalışırdı. Müstəqil və balanslaşdırılmış xarici və daxili siyasət aparırdı. Bir sözlə, Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan, erməni təcavüzünə qarşı tarix boyu mərdliklə mübarizə aparan Naxçıvan Ulu Öndərimiz Heydər Əliyev dühası ilə blokada şəraiti olsa da, inamla yaşayır və müstəqil addımlarını atırdı.

1993-cü ilin 17 iyun səhərini Ümummilli Liderimiz, necə deyərlər, səhəri dirigözlü açdı. Çox qayğılı və yorğun idi. Ölkə prezidentinin gecəyarısı müəmmalı şəkildə respublikanı tərk etməsi və naməlum ünvana getməsi xəbəri Ulu Öndərimizə çox mənfi təsir etmişdi. O, artıq Əbülfəz Elçibəyin qoçu ətrafı, ölkənin xaos durumu, parçalanma və vətəndaş müharibəsinin bütün ağırlığı ilə üzbəüz qalmışdı.



Azərbaycan milli kitabxanası

Dövlət televiziyası ilə çıxış edib bu xəbəri Azərbaycan xalqına çatdırmaq asan məsələ deyildi. Onsuz da mürəkkəb vəziyyətdə çarpışan xalq bu xəbəri necə qarşılayacaq?! Heydər Əliyev xəbərin çatdırılmasını və necə çatdırılmasını özlüyündə götür-qoy edirdi. Ümummilli Liderimizin ekran qarşısında təmkinli çıxışı, xalqın düşdüyü vəziyyətdən ancaq və ancaq öz gücü ilə çıxacağına inandırmağı sanki Azərbaycan xalqına yeni, daha mütəşəkkil mübarizəyə, əsrlərdən bəri can atdığımız azadlıq, müstəqillik mübarizəsinə çağırırdı. Ulu Öndər çıxışını qısa və günün reallığı ilə müqayisəli şəkildə yekunlaşdırıb dedi ki, müstəqil Azərbaycan tarixin çox çətin, mürəkkəb, həm də sınaq dövrünü yaşayır. Bu sınaq dövrünü biz birlikdə yaşayıb, birlikdə mübarizə aparmalıyıq ki, müstəqilliyimiz dönməz xarakter alsın.

Ümummilli Liderimiz Ali Sovetdə kabinetinə qalxdı. Xalqa müraciətindən sonra özündə yeni güc hiss edirdi. Qarşıda çox böyük işlər görmək lazım idi. Birinci növbədə ölkədə sabitlik yaratmaq, atəşkəsə nail olmaq, dağılan, talan edilən iqtisadiyyatı bərpa etmək, ölkədə hökm sürən dərəbəyliyin, silahlı dəstələrin ləğv edilməsini, ölkənin parçalanması cəhdlərinin qarşısının alınması kimi çox ağır problemlərin həllinə çalışmaq lazımdı. Bütün bu taleyüklü problemlərin həllində isə xalqın qırılmış inamını özünə qaytarmaq, xalqın gücünü Azərbaycanın müstəqillik mübarizəsinə yönəltmək lazım idi. Bu problemlərin həll edilməsi isə Əbülfəz Elçibəyin ərköyün komandasının üzvləri ilə toqquşmaya səbəb olacaq. Heydər Əliyev xalqın inamını özünə qaytarmaq üçün ölkə televiziyası və radiosunun, mətbuatının fəaliyyətini yenidən qurdu. Ölkədə gedən bütün siyasi proseslər televiziya ilə aşkarlıq şəraitində ictimaiyyətə çatdırılırdı. Bunun nəticəsində xalq siyasi cəhətdən həm silahlanırdı, həm də haqqın-ədalətin təntənəsini öz gözləri ilə görürdü. İşləməyən qanunlar işə düşdükcə kimin kim olduğu aydınlaşırdı. Ölkədə silahlı qruplaşmalar tədricən ləğv olunurdu, vəzifəsindən sui-istifadə halları aşkarlıq güzgüsündə tədricən aradan götürülürdü, ordu quruculuğu istiqamətində ciddi islahatlar gedirdi, vəzifəyə gəlmək üçün satqınlıq, xəyanət edənlər ədalət məhkəməsi qarşısında cavab verməli olurdular, günahkarlar isə cəzalandırılırdılar. Çox qısa müddətdə cəmiyyətdə canlanma hiss olunurdu. Xalq Heydər Əliyev dahiliyini bir daha sanki yenidən kəşf etdi, yekdilliklə Ümummilli Lidermizi 1993-cü ildə ölkəmizin prezidenti seçdi. Ölkədə gedən müsbət siyasi proseslər düşmənlərimizi, xüsusən də ermənilər çox narahat edirdi. Ermənilər işğalçılıq əməllərini genişləndirmək üçün Füzuli-Beyləqan istiqamətində hücuma keçdilər. Azərbaycan ordusu artıq başipozuq ordu deyildi. Ona görə də yeni yaradılan nizami ordumuzun güclü müqaviməti ilə üzləşdikdən sonra böyük itki ilə geri oturduldu. Heydər Əliyev dühasının xalqı mənəvi cəhətdən formalaşdırmaq ideyası öz nəticəsini verirdi. Atəşkəs sazişinin bağlanmasına ermənilər məcbur oldular, "Əsrin müqaviləsi» sazişi imzalanmaqla iqtisadiyyatımız dirçəlməyə istiqamətləndiril-di, qanunsuz silahlı dəstələrin dövlət çevrilişlərinin qarşısı qətiyyətlə alındı və bu cəhdlərə birdəfəlik son qoyuldu, müasir tələblərə cavab verən çoxpartiyalılıq prinsipi əsasında Milli Məclis formalaşdı, Milli Konstitusiyamız qəbul olundu, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisinə başlanıldı, inflyasiya rəm edildi, talan olan iqtisadiyyatımız dirçəlməyə başladı, Azərbaycan xalqının haqlı tələbi, dünyanın super dövlətlərinin Ali məclislərində Heydər Əliyev dühasının tələbi ilə müzakirə olunurdu. Artıq müstəqil Azərbaycan Avropa və Qərb dövlətlərinin, ABŞ-ın təhlükəsizlik missiyasının etibarlı tərəfdaşına çevrilmişdi. Tarix boyu işğalçı Rusiyanın himayəsi ilə Azərbaycan əleyhinə aparılan erməni böhtanı artıq Heydər Əliyev dühası qarşısında Azərbaycan həqiqətləri ilə ifşa olunurdu.





İndi dünya dövlətləri Azərbaycan həqiqətləri, Azərbaycan gücü, Azərbaycan böyüklüyü ilə üz-üzədir. Bilərəkdən və ya bilməyərəkdən erməni böhtanlarına, erməni iftiralarına yaşıl işıq yandıran ABŞ, Avropa dövlətləri Azərbaycan həqiqətlərini Heydər Əliyev dühasında qəbul etməyə məcbur oldular. Tarixən Azərbaycan torpaqlarını işğal edib erməni dövləti yaradan rus siyasətinin qarşısını Heydər Əliyev dühası yenilməz dağ kimi kəsdi. Vaxtilə vətəndaş müharibəsinin bir addımlığında olan, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən, iqtisadiyyatı talan olan müstəqil Azərbaycan Heydər Əliyev dühasına sığınaraq yaşadı, bütün itkilərə dözdü, yenidən qurdu, yenidən yaratdı - respublikamız qüdrətli Azərbaycana çevrildi. Dünya dövlətləri Azərbaycan həqiqətləri ilə hesablaşmağa vadar edildi. Bu gün müstəqil Azərbaycan öz haqlı tələbini dünya dövlətlərinin siyasi müstəvisinə qoyub sabaha inamla addımlayır. Müzəffər Ali Baş Komandanın əmri ilə Şanlı Ordumuz erməni işğalçılarından müqəddəs torpaqlarımızdan azad etdi, tarixi ədalət öz yerini tapdı. Heydər Əliyev siyasətini öz əqidəsində yaşadan və inkişaf etdirən cənab Prezidentimiz İlham Əliyev quyruğunda erməni sürünən rus işğalçılıq siyasətinə qalib gəldi. Qüdrətli müstəqil Azərbaycan, Heydər Əliyev sükanını əlində möhkəm saxlayan, Heydər Əliyev siyasətini müasir tələblərlə cilalayan cənab Prezident, Ali Baş komandan İlham Əliyev öz doğma xalqı ilə Azərbaycan torpaqlarını işğaldan azad etmişdir, qaçqınlar tədricən doğma yurd-yuvalarına qayıdır, yeni, firavan, azad həyat qururlar. Ölkəmiz misli görünməmiş quruculuq dövrünə qədəm qoymuşdur. Heydər Əliyev dühası tarixin təkrar olunan işğalçılıq təkərini dayandırmış. İlham Əliyev qətiyyəti müstəqil Azərbaycanın düşməni olan erməni işğalçılarını tam məğlubiyyətə uğratmışdır. Cənab Prezident İlham Əliyevin siyasəti, mətin iradəsi Azərbaycanı sabaha, qüdrətli Azərbaycanın sabahına aparır! Həmin sabahlar müstəqilliyimizin banisi, Ulu Öndər Heydər Əliyevin reallaşan arzularıdır!

***Əməkdar elm xadimi, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru, tibb elmləri doktoru***
***Vaqif Bilas oğlu Şadlinski***